## “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.3.14-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 1 mart 2012-ci il
№ 48

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2012-ci il 1 mart
tarixli 48 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin (bundan sonra - Gömrük Məcəlləsi) 261.2-ci maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra - Komitə) apardığı Reyestrə (bundan sonra - Reyestr) daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının (bundan sonra - kredit təşkilatları) müraciətlərinə baxılması məsələlərini tənzimləyir.

1.2. Gömrük Məcəlləsinə müvafiq olaraq, gömrük borcları bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan və Reyestrə daxil edilmiş kredit təşkilatlarının qarantiyası ilə təmin olunur.

1.3. Gömrük orqanları yalnız bu Qayda ilə müəyyən edilmiş formada təqdim olunan qarantiyaları gömrük borcunun ödənilməsi təminatı kimi qəbul edir.

## 2. Kredit təşkilatının Reyestrə daxil edilməsi üçün tələb olunan sənədlər

2.1. Kredit təşkilatının Reyestrə daxil olması üçün Komitəyə aşağıdakı sənədlər təqdim edilir:

2.1.1. Reyestrə daxil olmaq üçün ərizə (1 nömrəli əlavə);

2.1.2. son hesabat ilinə və tarixinə rəhbərinin və baş mühasibinin imzası, kredit təşkilatının möhürü ilə təsdiq edilmiş *maliyyə hesabatları*;[1]

2.1.3. bank fəaliyyətinin həyata keçirilməsi üçün ~~*Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - Mərkəzi Bank) tərəfindən*~~ verilmiş lisenziyanın surəti;[2]

2.1.4. bank qarantiyasını imzalamaq hüququ olan şəxslərin notarial qaydada təsdiq edilmiş imza və möhür nümunələri;

2.1.5. son kənar auditor yoxlamasının nəticələrinin surəti;

2.1.6. bankın son hesabat ilinə və tarixinə likvidlik və məcmu kapitala dair prudensial normativlərinin, bank olmayan kredit təşkilatının isə minimum nizamnamə kapitalı normativinin *Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Maliyyə Bazarlarına Nəzarət Palatası)* tərəfindən müəyyən olunmuş tələblər səviyyəsində olması barədə məlumat.[3]

2.2. Reyestrə daxil olmaq üçün kredit təşkilatının ərizəsinə bu məqsədlə Komitədə yaradılmış xüsusi Komissiya tərəfindən 30 (otuz) təqvim günü müddətində baxılır.

## 3. Kredit təşkilatının Reyestrə daxil edilməsi

3.1. Komitəyə təqdim edilən sənədlər tam və düzgün olduqda, habelə kredit təşkilatının prudensial normativlərin pozulmasına yol vermədiyi müəyyən edildikdə, kredit təşkilatının Reyestrə daxil edilməsi haqqında qərar qəbul edilir. Bu barədə qərar qəbul olunduğu gündən 2 (iki) iş günü müddətində Komitə tərəfindən ərizəçiyə məlumat verilir (2 nömrəli əlavə).

3.2. Reyestrə daxil edilməsi haqqında məlumat alan kredit təşkilatı Gömrük Məcəlləsinin 261.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş yığım məbləğini ödədiyi gündən sonrakı ayın 1-də Reyestrə daxil edilir və gömrük borclarını təmin etmək üçün qarantiya öhdəliyi vermək hüququnu əldə edir (3 nömrəli əlavə). Bu barədə kredit təşkilatına Reyestrdən çıxarış verilir (4 nömrəli əlavə).

3.3. Kredit təşkilatının təqdim etdiyi sənədlərin tam və düzgün olmadığı və ya onun prudensial tələblərə cavab vermədiyi müəyyən olunduqda, Komitə kredit

təşkilatını Reyestrə daxil etməkdən imtina edir və bu barədə ərizəçiyə məlumat verilir (5 nömrəli əlavə).

3.4. Kredit təşkilatının Reyestrə daxil edilməsi ilə bağlı təkrar müraciətinə imtinanın səbəbləri aradan qaldırıldıqdan sonra baxılır.

**4. Reyestrə daxil edilmiş kredit təşkilatının vəzifələri və məsuliyyəti**

4.1. Reyestrə daxil edilmiş kredit təşkilatı aşağıdakı vəzifələri daşıyır:

4.1.1. borclu şəxs bank qarantiyası ilə təmin edilmiş gömrük borclarını vaxtında ödəmədikdə, gömrük orqanının təqdim etdiyi hesaba əsasən bank qarantiyası ilə təmin etdiyi məbləği 10 (on) iş günü müddətində öz vəsaiti hesabına ödəmək;

4.1.2. hər rüb üzrə növbəti rübün ikinci ayının 1-dən gec olmayaraq, prudensial normativlərin yerinə yetirilməsi barədə məlumatı Komitəyə təqdim etmək;

4.1.3. *Maliyyə Bazarlarına Nəzarət Palatasının* müəyyən etdiyi hesabat müddətindən 10 (on) iş günü ərzində özünün illik *maliyyə hesabatlarını* Komitəyə təqdim etmək.[4]

4.2. Ləğv edilən və ya yenidən təşkil edilən, lisenziyası ləğv edilən, yaxud bank qarantiyası üzrə öhdəliklərini yerinə yetirməyən kredit təşkilatları Gömrük Məcəlləsinin 261.4-cü maddəsinə əsasən, Komitənin qərarı ilə Reyestrdən çıxarılır və bu barədə kredit təşkilatına məlumat verilir (6 nömrəli əlavə). Bu zaman Reyestrə daxil olmaq üçün ödənilmiş yığım Gömrük Məcəlləsinin 261.5-ci maddəsinə əsasən geri qaytarılmır.

4.3. Komitə kredit təşkilatının Reyestrdən çıxarılması barədə 3 (üç) iş günü ərzində *Maliyyə Bazarlarına Nəzarət Palatasına* yazılı məlumat verir.[5]

4.4. Kredit təşkilatı Reyestrdən çıxarılan günə qədər təqdim etdiyi qarantiya üzrə öhdəliklərinin tam və vaxtında icrasına görə məsuliyyət daşıyır.

**5. Qarantiya ilə təminatın maksimal hədləri**

5.1. Gömrük borclarını təmin edən qarantiyaların maksimal hədləri aşağıdakı kimi müəyyən edilir.

| **Kredit təşkilatlarının nizamnamə kapitalı *Maliyyə Bazarlarına Nəzarət Palatasının*müəyyən etdiyi minimum nizamnamə kapitalından** | **Banklar** | | **Bank olmayan kredit təşkilatları** |
|---|---|---|---|
| | **bir qarantiya üzrə öhdəlik, ABŞ dollarına ekvivalent məbləğ ilə** | **bütövlükdə belə qarantiyalar üzrə öhdəlik, ABŞ dollarına ekvivalent** | **bir və ya bir neçə qarantiya üzrə öhdəlik, ABŞ dollarına** |

| | | məbləğ ilə | ekvivalent məbləğ ilə |
|---|---|---|---|
| 2,0 dəfə çox olduqda | 1,0 milyon | 2,0 milyon | 150,0 min |
| 1,5 dəfə çox olduqda | 500,0 min | 1,0 milyon | 100,0 min |
| 1,0 dəfə çox olduqda | 250,0 min | 500,0 min | 50,0 min |

**6. Yekun müddəalar**

6.1. Reyestrdən çıxarılmış kredit təşkilatı bu Qaydanın tələblərinə uyğun olaraq, yenidən Reyestrə daxil edilməsi ilə bağlı bir il keçdikdən sonra müraciət edə bilər.

6.2. Banklar və bank olmayan kredit təşkilatlarının Reyestri bu Qaydaya uyğun olaraq aparılır və Komitənin internet saytında yerləşdirilir (7 nömrəli əlavə).

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**1 nömrəli əlavə**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə

ƏRİZƏ

______________________________________________________________________________

*(kredit təşkilatının adı)*

Sizdən xahiş edir ki, onu Reyestrə daxil edəsiniz.

Kredit təşkilatı verdiyi qarantiya öhdəliyinə əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tələblərini yerinə yetirməyi öz öhdəsinə götürür.

Reyestrə daxil edilmək üçün zəruri sənədlər əlavə olunur.

Kredit təşkilatı xahiş edir ki, Reyestrə kredit təşkilatının aşağıdakı filiallarını da daxil edəsiniz.

______________________________________________________________________________

______________________________________________________________________________

__
*(kredit təşkilatının rekvizitləri, ünvanı)*

__________________________________________________________________
__
*(rəhbərin və baş mühasibin adı, soyadı)*

Kredit təşkilatı filiallarının verdiyi bütün qarantiyalara görə tam məsuliyyəti öz üzərinə götürür.

Əlavələr:

__________________________________________________________________
__
*(əlavə edilmiş sənədlərin siyahısı)*

Kredit təşkilatının səlahiyyətli şəxsi                    Baş mühasib

_______________(imza)                    _______________(imza)

M.Y.

Tarix ______________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**2 nömrəli əlavə**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

__________________________________________________________________
__
*(kredit təşkilatının adı)*

aşağıdakı filialları ilə

____________________________________________________
*(filialların adları)*

__________________________________________________________________
__
*(filialların bank rekvizitləri və ünvanları)*

_____________________________________________________________________________

__

birlikdə _______________ Reyestrə daxil edilməsi barədə qərar qəbul etmişdir.

_________________________________________manat yığım ödənildiyi halda

*(məbləğ yazı ilə)*

_____________________________________________________________________________

__

*(kredit təşkilatının adı)*

Gömrük orqanları qarşısında qarant kimi çıxış etmək hüququ əldə edəcəkdir.

Komissiyanın sədri

______________(imza)

M.Y.

Tarix _____________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**3 nömrəli əlavə**

____________________________rəisi ___________________________

*(gömrük orqanının adı)* *(adı, soyadı)*

**Qarantiya öhdəliyi № _____**

"____" ___________ 20 __ il

_____________________________________________________________________________

__

*(kredit təşkilatının tam adı, VÖEN-i, ünvanı, müxbir hesabının nömrəsi, valyuta əməliyyatları aparmaq üçün*

_____________________________________________________________________________

__

*~~Mərkəzi Bankın verdiyi~~ lisenziyasının nömrəsi, telefon və faks nömrələri)* [6]

bununla təminat verir ki, 20 __ il "___" ______________ tarixli ________ №-li

müqaviləyə _______________________________________________ tərəfindən idxal (ixrac)

*(müəssisənin adı)*

olunmuş ______________________________________ məbləğində mal üçün hesablanmış

*(malın dəyəri, sözlə)*

_____________________________________________________________________ məbləğdə

*(gömrük ödənişinin məbləği, sözlə)*

gömrük borclarını, ödəniş sənədi təqdim edildiyi gündən 3 (üç) iş günü müddətində

_______________________________________________________________________________

*(gömrük orqanının hesabı olan bankın adı)*

___________________ №-li hesabına köçürülməsini təmin edəcəkdir.

Qarantiya öhdəliyi ilə təmin olunmuş məbləğ göstərilən müddətdə müəssisə tərəfindən ödənilməzsə, bu zaman kredit təşkilatı həmin vəsaiti öz vəsaiti hesabına ödəməyi öhdəsinə götürür.

Bu qarantiya məktubuna əsasən gömrük ödənişləri vaxtında ödənilmədikdə, kredit təşkilatıgömrük orqanlarına qarantiya öhdəliyində göstərilən məbləğlə yanaşı, Gömrük Məcəlləsinin 247.3-cü maddəsinə əsasən hər gecikdirilmiş gün üçün 0,1 faiz dəbbə pulu ödəyəcəyinə də zəmanət verir.

Bu qarantiya öhdəliyi malın gömrük rəsmiləşdirilməsindən keçdiyi andan gömrük borclarının ödənildiyi anadək qüvvədədir.

| | |
|---|---|
| Kredit təşkilatının səlahiyyətli şəxsi | Baş mühasib |
| _______________(imza) | _______________(imza) |

M.Y.

Tarix ______________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**4 nömrəli əlavə**

**Reyestrdən çıxarış**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

_____________________________________________________________________________

*(kredit təşkilatının adı, VÖEN-i)*

_____________________________________________________________________________

*(kredit təşkilatının ünvanı)*

aşağıdakı filialları ilə birlikdə:

_____________________________________________________________________________

_____________________________________________________________________________

*(filialların adları, ünvanları və tam maliyyə rekvizitləri)*

________tarixdə Reyestrə_________ nömrə ilə daxil etmişdir.

__________________________________________

*(kredit təşkilatının adı)*

20 ___il "____" _________ tarixindən gömrük orqanları qarşısında qarant kimi çıxış edə bilər.

Azərbaycan Respublikasının
Dövlət Gömrük Komitəsi

________________(imza)

M.Y.

Tarix ______________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**5 nömrəli əlavə**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

___________________________________________________________________

*(kredit təşkilatının adı)*

___________________________________________________________________

___________________________________________________________________

*(imtinanın səbəbi)*

Reyestrə daxil etməkdən imtina edir.

Komissiyanın sədri:

İmza________________

M.Y.

Tarix ______________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**6 nömrəli əlavə**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bildirir ki, __________________

___________________________________________________________________

*(kredit təşkilatının adı)*

filialları ilə birlikdə ____________________________________________________

*(reyestrdən çıxarılmanın səbəbi)*

Reyestrdən çıxarılmışdır.

Komissiyanın sədri:

İmza________________

M.Y.

Tarix ______________

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün
banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"na

**7 nömrəli əlavə**

**Banklar və bank olmayan kredit təşkilatlarının Reyestri**

| Sıra №-si | Kredit təşkilatının və ya filiallarının adları | VÖEN | Kredit təşkilatının və ya filiallarının ünvanı | DGK-nın Reyestrə daxil-olma qərarının tarixi və nömrəsi | Bir qarantiya məbləğinin maksimal həddi, ABŞ dollarına ekvivalent məbləğ ilə | Eyni zamanda verilən qarantiya məbləğlərinin yekun maksimal həddi, ABŞ dollarına ekvivalent məbləğ ilə |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| | | | | | | |

[İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI]

1. 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**)
2. 22 sentyabr 2018-ci il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 25 sentyabr 2018-ci il, № 214)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 22 sentyabr 2018-ci il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 25 sentyabr 2018-ci il, № 214)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın 2.1.2-ci və 4.1.3-cü yarımbəndlərində ismin müvafiq hallarında “**balans**” sözü ismin müvafiq hallarında “**maliyyə hesabatları**” sözləri ilə əvəz edilmişdir.

[2] 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**) ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın 2.1.3-cü yarımbənddən “**Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - Mərkəzi Bank) tərəfindən**” sözləri çıxarılmışdır.

[3] 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**) ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın 2.1.6-cı yarımbənddə “**Mərkəzi Bank**” sözləri “**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Maliyyə Bazarlarına Nəzarət Palatası)**” sözləri ilə əvəz edilmişdir.

[4] 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**) ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın 4.1.3-cü yarımbənddə və 5.1-ci bəndin cədvəlinin birinci sütununda “**Mərkəzi Bankın**” sözləri “**Maliyyə Bazarlarına Nəzarət Palatasının**” sözləri ilə əvəz edilmişdir.

[5] 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**) ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası”nın 4.3-cü bənddə “**Mərkəzi Banka**” sözləri “**Maliyyə Bazarlarına Nəzarət Palatasına**” sözləri ilə əvəz edilmişdir.

[6] 22 noyabr 2016-cı il tarixli **476** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №11, maddə 1964**) ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin

apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"nın 3 nömrəli əlavəsindən "**Mərkəzi Bankın verdiyi"** sözləri çıxarılmışdır.